# Ədalət sonda qalib gəlir

## Müharibə cinayətkarları Azərbaycan məhkəmələrində cavab verməlidirlər

Azərbaycan xalqının bir problemi vaxtilə dövlət müstəqilliyini itirməsi, ikincisi isə, ermənilərin kütləvi şəkildə tarixi Azərbaycan torpaqlarına yerləşdirilməsi olub. Ermənilər onlara göstərilən qayğıdan sui-istifadə edərək yerli azərbaycanlıları sıxışdırmağa, yerləşdikləri yerlərin tarixini erməniləşdirməyə və gələcəkdə Azərbaycan torpaqlarında müstəqil dövlət yaratmağa nail olublar: "Onların azərbaycanlılara qarşı etdikləri həmişə vəhşilik, qaniçənlik, qətllər və insanlığa zidd hərəkətlər olub. Keçmiş SSRİ rəhbəri Mixail Qorbaçovun onlara isti münasibəti, Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin siyasətdən uzaqlaşdırılması ilə onlar daha da azğınlaşdılar. Erməni millətçiləri Dağlıq Qarabağ və onun ətrafında yerli əhaliyə qarşı ən qəddar hərəkətlər törətdilər. Bunlardan biri də Meşəli faciəsidir".

Azərbaycan müstəqil dövlətçiliyini ilk növbədə suveren hüquqlarını qorumaqla, hüquqi demokratik dövlət qurmaqla daxili və xarici siyasətini müstəqil həyata keçirir. Erməni cinayətkarları törətdikləri cinayət əməllərinə görə cəzasını bu və ya digər formada mütləq alacaqlar.

Erməni separatizminə hər zaman beynəlxalq dəstək verilib. Buna görə də Ermənistanın Azərbaycan xalqına qarşı törətdiyi soyqırımı, qanlı cinayətlərin məsuliyyəti həm də terrora, separatizmə dəstək verənlərin üzərinə düşür. Bunlar insan hüquqlarından danışan Avropa strukturlarıdır. Onlar 30 ildən artıq zaman ərzində ən kobud və aşkar şəkildə tapdanan azərbaycanlıların hüquqlarından danışmayıblar. Biz bir daha gördük ki, insan hüquqları ilə bağlı çağırışlar, onun qorunması istiqamətində fəaliyyətlər, sadəcə olaraq, imitasiya və alətdir ki, ayrı-ayrı dairələr geosiyasi, geoiqtisadi maraqları üçün bundan istifadə edirlər.

1991-ci ildə azərbaycanlılara qarşı genişmiqyaslı soyqırımı törədilib, 1992-ci ildə isə ABŞ tərəfindən "Azadlığa dəstək" aktına 907-ci düzəliş qəbul olunub. Deməli, məqsədli şəkildə Azərbaycana qarşı erməni təcavüzlərinə beynəlxalq instansiyalarda rəvac verilib.

→ 10

# Ədalət sonda qalib gəlir

## Müharibə cinayətkarları Azərbaycan məhkəmələrində cavab verməlidirlər





**Hər zaman olduğu kimi, Azərbaycana qarşı haqsızlıqlara susanlar, ermənilərə gəlincə isə, səslərini ucaldanlar bu gün yenidən qatilin müdafiəsinə qalxıblar. Belə ki, Meşəli faciəsinin qatillərindən, müharibə cinayətkarı olan Vaqif Xaçaturyanın həbsi eynilə bəzi reaksiyasız təşkilatları fəallaşdırıb. Bununla bağlı Meşəli soyqırımının qurbanları beynəlxalq ictimaiyyətə açıq məktubla müraciət ediblər.**

Məktubda qeyd olunub ki, 1991-ci ilin dekabrında Xocalının Meşəli kəndində Ermənistan silahlı qüvvələri tərəfindən soyqırımına məruz qalmış kəndin sakinləri müharibə cinayətkarı, bu günlərdə Laçın yolunda ələ keçirilmiş Vaqif Xaçaturyanı yaxşı tanıyır. Onun əlləri dinc insanların - körpələrin, qadınların, qocaların qanına batıb.

Bildirilib ki, müharibə cinayətkarı Vaqif Xaçaturyan ələ keçən kimi bəzi təşkilatlar peyda olub, bir-birinin ardınca onun azad edilməsinə çağırışlar edirlər: "Biz - Meşəli sakinləri bundan böyük hiddət keçiririk, bunu özümüzə qarşı təhqir, həqarət kimi qəbul edirik. Bu cür çağırışlar yolverilməzdir! Meşəlidə bizə vurulan yaralar hələ də sağalmayıb. Biz illərdir ki, bu müharibə cinayətlərindən əziyyət çəkirik, doğma yurd yerlərimizdən didərgin düşmüşük".

Meşəli sakinləri tələb ediblər ki, Vaqif Xaçaturyan və onun kimi digər müharibə cinayətkarları onların qarşısında - Azərbaycan məhkəmələrində cavab verməlidirlər.

Sonuncu hadisələr də göstərir ki, illərlə azərbaycanlıların başına gətirilən min bir fəlakəti görmək, eşitmək istəməyənlər qatilin, hərbi cinayətkarın müdafiəsinə qalxmaqla, məkrli, qərəzli və ədalətsiz siyasətlərini davam etdirirlər.

### Erməni cinayətkarlar cəzalarını bu və ya digər formada mütləq alacaqlar

Milli Məclisin deputatı Aydın Mirzəzadə qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan xalqının bir problemi vaxtilə dövlət müstəqilliyini itirməsi, ikincisi isə, ermənilərin kütləvi şəkildə tarixi Azərbaycan torpaqlarına yerləşdirilməsi olub. Ermənilər onlara göstərilən qayğıdan sui-istifadə edərək yerli azərbaycanlıları sıxışdırmağa, yerləşdikləri yerlərin tarixini erməniləşdirməyə və gələcəkdə Azərbaycan torpaqlarında müstəqil dövlət yaratmağa nail olublar: "Onların azərbaycanlılara qarşı etdikləri həmişə vəhşilik, qaniçənlik, qətllər və insanlığa zidd hərəkətlər olub. Keçmiş SSRİ rəhbəri Mixail Qorbaçovun onlara isti münasibəti, Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin siyasətdən uzaqlaşdırılması ilə onlar daha da azğınlaşdılar. Erməni millətçiləri Dağlıq Qarabağ və onun ətrafında yerli əhaliyə qarşı ən qəddar hərəkətlər törətdilər. Bunlardan biri də Meşəli faciəsidir".

A.Mirzəzadə vurğulayıb ki, erməni əhalisi sovet ordusundan aldığı silahlarla azərbaycanlılara qarşı genosidə başladılar. Bir kəndin timsalında insanlar günahkarcasına qətlə yetirildi, torpaqlarından qovuldular. Azərbaycanlılarla qonşu olan ermənilərin içərisində bir qaniçənlik meydana çıxdı. Bunlardan biri də Vaqif Xaçaturyan nümunəsidir. Adi sürücü işləyən Xaçaturyan erməni toplumunun içində əsrlərlə davam edən Azərbaycan nifrəti ilə böyümüşdü. O və onun kimi digər həmvətənləri azərbaycanlılara qarşı böyük cinayətlər törətməyə başladılar.

Erməni millətçilərinin əllərinə həmin dövrdə şans düşdüyünü və azərbaycanlılara qarşı törətdikləri cinayətlərin bağışlanacağını hesab etdiklərini xatırladan deputat bildirib ki, ədalət sonda qalib gəlir. "Qədim tarixə, mədəniyyətə malik olan Azərbaycan xalqı toparlanaraq, böyük oğlu Heydər Əliyevi ali siyasətə dəvət edərək güclü, müstəqil dövlətini qurdu. Heydər Əliyev yolunu Prezident İlham Əliyevin düşünülmüş siyasəti ilə davam etdirməsi Azərbaycanın nüfuz qazanmasına, suveren hüquqlarını istənilən səviyyədə müdafiə etməsinə gətirib çıxardı. Vaqif Xaçaturyan Azərbaycanı müalicə adı ilə tərk etməyə çalışsa da, əslində, məqsədi Qarabağdan qaçmaq idi. O bilirdi ki, törətdiyi cinayətlərə görə bir gün məhkəmə qarşısına çıxacaq. Heç də təsadüfi deyil ki, bu gün Azərbaycanın Qarabağ iqtisadi zonasında yaşayan erməni sakinlərin bir qismi o siyahıda olduqlarını bildirirlər", - deyə A.Mirzəzadə əlavə edib.

Deputat qeyd edib ki, Azərbaycan müstəqil dövlətçiliyini ilk növbədə suveren hüquqlarını qorumaqla, hüquqi demokratik dövlət qurmaqla daxili və xarici siyasətini müstəqil həyata keçirir. Erməni cinayətkarları törətdikləri cinayət əməllərinə görə cəzasını bu və ya digər formada mütləq alacaqlar.

### Qanlı cinayətlərin məsuliyyəti erməni separatizminə dəstək olanların da üzərinə düşür

Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu qeyd edib ki, Vaqif Xaçaturyanın cinayət əməllərinin peşəkarlıqla müəyyənləşdirilərək həbs edilməsi vaxtilə Azərbaycan xalqına qarşı qanlı faciələr törədən hər bir şəxsin layiqli cəzasını alacağını bir daha nümayiş etdirdi. Deputat xatırladıb ki, 1991-ci ilin dekabrında Xaçaturyan da başda olmaqla erməni terrorçuları Xocalının Meşəli kəndində soydaşlarımıza qarşı soyqırımı həyata keçiriblər. "Bu gün Xaçaturyanın azadlığa buraxılmasını istəyən, bu yolda fədakarlıq nümayiş etdirən beynəlxalq dairələr 32 il bundan öncə azərbaycanlılara qarşı törədilmiş bu qanlı cinayətə heç bir reaksiya bildirməyiblər. Nə 1991-ci ildə, nə də ondan keçən 32 il ərzində sanki belə bir hadisə baş verməmişdi. Ən azından indiki dövrdə Xaçaturyanın həbs olunmasından sonra nə baş verdiyi ilə maraqlanmaq olardı. Yəni məsələnin əsl mahiyyəti kənarda qalıb. İndi bəzi dairələr bir erməni terrorçusunun müdafiəsi istiqamətində səfərbər olublar. Bu da təbii ki, bizə bəlli olan məqamları bir daha qətiləşdirir", - deyə o əlavə edib.

E.Mirbəşiroğlu bildirib ki, erməni separatizminə hər zaman beynəlxalq dəstək verilib. Buna görə də Ermənistanın Azərbaycan xalqına qarşı törətdiyi soyqırımı, qanlı cinayətlərin məsuliyyəti həm də terrora, separatizmə dəstək verənlərin üzərinə düşür. Bunlar insan hüquqlarından danışan Avropa strukturlarıdır. Onlar 30 ildən artıq zaman ərzində ən kobud və aşkar şəkildə tapdanan azərbaycanlıların hüquqlarından danışmayıblar. Biz bir daha gördük ki, insan hüquqları ilə bağlı çağırışlar, onun qorunması istiqamətində fəaliyyətlər, sadəcə olaraq, imitasiya və alətdir ki, ayrı-ayrı dairələr geosiyasi, geoiqtisadi maraqları üçün bundan istifadə edirlər.

Deputat vurğulayıb ki, Meşəlidə törədilmiş qanlı cinayətə vaxtında lazımi reaksiya verilsəydi, ondan sonra törədiləcək cinayətlərin qarşısı alınardı: "Bundan bir neçə ay sonra Xocalı şəhərində, Ağdabanda, Ballıqayada və digər kəndlərimizdə soyqırımları, cinayətlər həyata keçirildi. Bu gün Azərbaycan ərazisində yaşayan, Bakıya tabe olmayan ermənilərə qarşı guya Azərbaycan hakimiyyəti tərəfindən soyqırımı həyata keçirildiyi iddia edilir. Erməni separatçılarını dəstəkləyənlər Azərbaycana qarşı əsassız iddialar irəli sürərək bəlli dairələrin maraqlarına xidmət edirlər. Onların maraqlarına xidmət edən alətlərdən biri də insan hüquqlarıdır. Erməni terrorçuların hüquqları müdafiə olunur, amma terrora, soyqırıma məruz qalan azərbaycanlıların hüquqları yada düşmür. Bu, təbii ki, aşkar ikili standartların, riyakarlığın göstəricisidir".

Deputat qeyd edib ki, 1991-ci ildə azərbaycanlılara qarşı genişmiqyaslı soyqırımı törədilib, 1992-ci ildə isə ABŞ tərəfindən "Azadlığa dəstək" aktına 907-ci düzəliş qəbul olunub. Deməli, məqsədli şəkildə Azərbaycana qarşı erməni təcavüzlərinə beynəlxalq instansiyalarda rəvac verilib.

İndi ona görə də ədaləti Azərbaycan dövləti təmin etmək qərarındadır. Xaçaturyan və onun kimilərin mütləq şəkildə məsuliyyətə cəlb olunacağı və qanun qarşısında cavab verəcəkləri heç kimdə şübhə doğurmamalıdır. Azərbaycan dövlətinin bunun üçün kifayət qədər gücü və imkanları var. 32 ildən sonra Xaçaturyanın həbs edilməsi bir siqnaldır və bu, ondan ibarətdir ki, əli azərbaycanlıların qanına batmış bütün erməni terrorçuları, təcavüzkarları məsuliyyətə cəlb olunacaq və onlar qanunun tələblərinə uyğun olaraq layiqli cəzalarını alacaqlar. Bu, Azərbaycan xalqının, dövlətinin iradəsinin göstəricidir, həm də yaxınlarını, əzizlərini itirmişlərə verilən təsəllidir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2023.- 4 avqust.- S. 1; 10.